# Şamaxıda respublika elmi konfransı keçirilib

***ADPU-nun Şamaxı filialında Azərbaycan Dövlət Pedaqoji Universiteti və Şamaxı filialının birgə təşkilatçılığı ilə "Türkdilli xalqların elmi-mədəni əlaqələri müasir mərhələdə: tarixi ənənə və perspektivlər" respublika elmi konfransı keçirilib. Pandemiya şəraiti nəzərə alınaraq, konfransda məqalə ilə çıxış edən və eləcə də dəvət olunmuş qonaqlar onlayn, filial əməkdaşları isə oflayn formatda konfransda iştirak edirdilər.***



Konfransdan əvvəl tədbir iştirakçıları Heydər Əliyev parkında ucaldılmış ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Sonra onlar İkinci Qarabağ müharibəsində şəhid olmuş Vətən övladlarının məzarlarını ziyarət etmək üçün Şəhidlər xiyabanına gəliblər. Şəhidlərin ruhuna dualar oxunub və məzarları üzərinə gül dəstələri qoyulub.

Konfransın keçirildiyi günlərdə mövzuya uyğun olaraq filialın həyətyanı sahəsində türkdilli xalqların mədəniyyətini əks etdirən kompozisiya nümayiş olunub.

Respublika elmi konfransının plenar iclası Azərbacan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlandı. ADPU-nun Şamaxı filialının direktoru, dosent Tünzalə Yusifova konfransın fəxri qonaqlarını, eləcə də digər iştirakçıları filialın bütün kollektivi adından salamlayaraq, qeyd edib ki, Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə birgə təşkil edilən bu üçüncü mötəbər konfrans həm də çox əlamətdar günlər ərəfəsinə təsadüf edir. Belə ki, yaxın günlərdə bütün dünya azərbaycanlıları cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı ilə düşmən tapdağı altında qalmış torpaqlarımızın azad olunduğu Qələbə Gününü qeyd edəcək.

Sonra T.Yusifova daha bir əlamətdar gün kimi yaxın günlərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100, onun Şəki, Quba, Şamaxı filiallarının 30 illik yubileylərinin böyük təntənə ilə qeyd ediləcəyini də bildirib.

T.Yusifova çıxışında elmi konfransın aktuallığını da qeyd edərək bildirib ki, türkdilli xalqlar özlərinin qədim, çoxəsrlik tarixi boyu Avrasiya məkanının böyük hissəsində yaşayaraq, bəşər mədəniyyətinə əvəzsiz töhfələr vermiş, onu zənginləşdirmişlər. Gələcəkdə türk xalqları arasında siyasi, iqtisadi, mənəvi, hərbi, mədəni əlaqələrin daha yüksək səviyyədə yaranıb bərqərar olması üçün bu yöndə mənəvi prinsiplərimizi inkişaf etdirməliyik. Vurğulanıb ki, bu baxımdan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, (Türk Şurası) türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərindən qaynaqlanan ümumi siyasi iradənin nəticəsi olaraq yaranmışdı. Türk Şurasının fəaliyyət planında "Elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi" planını nəzərə alsaq, konfransın aktuallığını bir daha görmüş olarıq.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov konfransın bu gün üçün aktuallığını vurğulayaraq, onun Türkiyə Xalq Cümhuriyyətinin yaranması gününə təsadüf etməsini mühüm amil kimi qiymətləndirib. O, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Türk zirvə Toplantılarının türkdilli xalqların iqtisadi, siyasi, mədəni, elmi əlaqələrinin inkişafında oynadığı roldan bəhs edib. Bu baxımdan Azərbaycan və Türkiyə dövlətləri arasında imzalanan Şuşa bəyannaməsinin tarixi rolu qeyd olunub.

Milli Məclisin deputatı Tamam Cəfərova konfransın aktuallığını qeyd edərək bildirib ki, bu gün Azərbaycan dövləti öz ənənəsinə sadiq qalaraq qardaş Türkiyə və digər türkdilli ölkələrlə həm mədəni, həm də siyasi əlaqələrini genişləndirərək bir çox problemlərin həllində birlikdə çalışır.

AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov çıxışında konfransın mövzusunun türkdilli xalqların dünəninə, bu gününə, sabahına baxışları nümayiş etdirdiyini vurğulayıb, türk xalqlarının tarixən dəyərlərinə, dillərinə, mədəniyyətlərinə, dövlətçilik ənənələrinə sadiq qaldıqlarını bildirib.

Qardaş Türkiyə Respublikasından konfransa qoşulmuş qonaqlardan – Amasiya Universitetinin dosenti Mətin Haqverdioğlu və Aydın Adnan Menderes Universitetinin professoru Ahmet Aytaç tədbirə qatıldıqlarından məmnunluq duyduqlarını bildirərək, öz çıxışlarını bölmə iclaslarında davam etdiriblər.

Elmi konfransda filialın tələbələri öz töhfələri ilə tədbirə rəng qatıblar. Plenar iclasda tələbələrin ifasında Xalq şairi Zəlimxan Yaqubun "Dünya türkün olacaq" şeir kompozisiyası və türk dövlətlərinin himnlərindən ibarət videoçarx təqdim olunub.

Konfrans öz işini "Elm sahəsində əməkdaşlığın perspektivləri: qüvvət elmdədir", "Türk xalqlarının ədəbi-mədəni abidələri: tarix və müasirlik" və "Türk dillərinin qorunması və inkişafı məsələləri" bölmələrində davam etdirib. Bölmə rəhbərləri – professorlar İbrahim Bayramov, Oktay Sultanov, Elman Quliyev, dosent Mayıl Alcanov, fəlsəfə doktorları Fəridə Mustafayeva və Eyvaz Eminaliyev hesabat məruzələri ilə çıxış etmişlər. Bölmə iclaslarında 100-ə yaxın aktual və maraqlı məqalələr üzrə çıxışların olduğu bildirilib.

Beləliklə, yüksək səviyyəli tədbirlərə evsahibliyi etmiş ADPU-nun Şamaxı filialında növbəti konfrans uğurla yekunlaşıb.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***